Rafael və sevgilisi haqqında əfsanələr yaranmışdı, lakin onları yalnız rəssamın ölümündən yüz il sonra qələmə almağa başlamışdılar. Böyük rəssamın sevdiyi qızın adı əvvəlkitək yenə naməlum olaraq qalırdı. Əfsanələrdə onu ancaq "Fornarina", yəni "bulkaçı qızı" adlandırırdılar. Sonralar da onu elə bu cür ad-



landırmağa başladılar. Onun atasının bulka dükanı Müqəddəs Sesiliya kilsəsinin yaxınlığında yerləşirdi. Fornarina tez-tez kilsənin kiçik bağında əyləşərdi. Onun gözəlliyi haqqında söz-söhbət bütün Romaya yayılmışdı və gənc oğlanlar, xüsusən rəssamlar bağın ətrafında hərlənməyi adət etmişdilər. Romaya gələndə 25 yaşı olan Rafael də, təbii ki, istisnalıq təşkil edə bilməzdi və ilk baxışdan ehtirasla gözəl bulkaçı qızına vurulmuşdu. Bulkaçı qızı da onu ehtirasla sevdiyinə görə valideynlərini tərk etmiş, onun evində yaşamağa başlamışdı. Güman etmək olar ki, məşhur rəssamla adi qızcığaz arasında Faustla Marqarita arasında olan münasibətə bənzər ünsiyyət yaranıbmış. Lakin bu, yanlış fikirdir. Fornarina gənc qəlbinin bütün hərarəti ilə sevdiyi adamın böyük istedadını qiymətləndirə bilməzdi. Onu ancaq gözəl pal-paltar, əyləncələr maraqlandıra bilərdi.

Fornarinanın portreti məsələsi də uzun müddət müəmmalı qalmışdı. Belə hesab edirdilər ki, Florensiyada Uffitsi qalereyasında saxlanan qadın başının rəsmi Rafaelə məxsusdur və o, Fornarinanın əksini çəkmişdir. İndi heç bir şübhə yoxdur ki, həmin rəsm Rafaelin fırçasının məhsulu deyildir. Güman edirlər ki, onu Fra-Sebastiano çəkmiş və Beatriçe di-Ferrara adlı kurtizankanı təsvir etmişdir. Rafaelin bəzi biliciləri bu fikirdə idilər ki, rəssam öz sevgilisini Florensiyada Pitti qalereyasında saxlanan *"La donna velata"* ("Duvaqlı qadın") adı ilə məşhur olan əsərində əbədiləşdirmişdir. Yalnız yeni tədqiqatlar, xüsusən də italyan tənqidçisi Antonio Valerinin *"La vita italiana "* jurnalında dərc etdirdiyi məqalə sayəsində biz Fornarinanın əsl portreti haqqında məlumata malikik. Onu təsvir etməyə ehtiyac yoxdur. O hamıya məlumdur. Fornarina – Sikst Madonnasıdır. Nəhəng rəssamın ən məşhur əsəri üçün adi bulkaçı qızı model olmuşdu. Bu tabloda insan gözəlliyi və ana məhəbbəti ideallaşdırılmış, körpəsini bağrına basmış Məryəm insanlara, real varlığa bağlı, həyatsevər bir obraz kimi təsvir olunmuşdur.


Əgər biz Fornarinanın portretini tanıyırıqsa, onda onun qəlbini də tanımalıyıq. Çünki Rafael üz cizgilərində qəlbi əks etdirmək kimi nadir istedada malik idi. Fornarinanın xarakterinin əsas cəhətləri – səmimilik və sədaqətdir. Onun gözlərində ağıl duyulmur, lakin onlarda, bütün simasında olduğu kimi, dərin hissiyyat vardır.

Fornarinanın əsl adını bildiyimizə görə də Valeriyə minnətdar olmalıyıq. Onun adı Marqarita Luti idi. İtaliya tədqiqatçısı onu Florensiya kitabxanasındakı əlyazmalarının birində, həmçinin monastırlardan birində rahibələrin siyahısında aşkar etmişdi. Zavallı qız sevgilisinin vaxtsız vəfatından sonra monastırda rahibəlik etmişdi...



Tərcümə edən:
Xaqan BALAYEV

HƏYAT LÖVHƏLƏRİ



ÇEÇEN DAVASI

Rostov Dəmiryol Mühəndisləri İnstitutunun Bakı Filialında işləyən dövrlərdə Şimali Qafqazda mühazirə oxumaq, məsləhətlər vermək üçün "nümayəndəliklərimiz"ə getməli olurduq. Bakı Filialı Cənubi və Şimali Qafqaz respublikalarını əhatə edirdi.

Qroznıya növbəti səfərə çıxmışdım. Nədənsə, Qroznı vağzalında məni qarşılayan yox idi (belə səfərlərdə məni çox təntənəli qarşılayırdılar). Odur ki, vağzalın gözləmə zalına keçib, məni qarşılamalı olanları gözləməyə başladım. Birdən kimsə arxadan əlləri ilə gözlərimi tutdu. "Qəribədir, Qroznıda mənə belə ərki çatan kim olar" – deyə fikirləşdimsə də, tapa bilmədim. Nəhayət, gözlərimi açdılar.

– Xoş gəlmisiniz, Xalil Medjidoviç, bəs gəldiyinizi niyə bizə bildirməmisiniz – deyən şəxs mənim keçmiş sevimli tələbəm idi.

– Bəs sən burada neyləyirsən? – soruşuram.

– Mən Qroznı vağzalının rəisiyəm – deyib, çantamı götürdü və kabinetinə dəvət etdi. Mən hara, nə üçün gəldiyimi ona söylədim. O:

– Sizi heç yerə buraxan deyilik, siz bizim qonağımızsınız – deyib, keçmiş tələbələrimizdən bəzilərinə zəng elədi.

– Bilirsiniz kim gəlib, sevimli müəllimimiz Xalil Medjidoviç, mənim kabinetimdədir – xəbərini çatdırdı.

Aradan cəmi 10-15 dəqiqə keçmişdi ki, mən artıq üç keçmiş tələbəmin əhatəsində idim. Bu məqamda "nümayəndəliyimiz"in məsul işçiləri başı alovlu vağzal rəisinin kabinetinə daxil oldular və məni qarşılamağa gecikdikləri üçün dil-ağız etməyə başladılar. Lakin gec idi. Mən artıq keçmiş tələbələrimin qonağı olacağıma qərar vermişdim. Rəsmilərlə iş yerində görüşəcəyimi bildirdim.

Keçmiş tələbələrim məni Qroznının dağlıq tərəfində hər cür şəraiti olan bir evdə yerləşdirdilər.

Səhər yeməyindən və bir az istirahətdən sonra məni iş yerimə apardılar.

Keçmiş tələbələrim (indi onlar məsul vəzifə sahibləri idi) axşam məni restorana dəvət etdilər. Restoranda bir nəfər də olsa qadın yox idi, əksəriyyət cavanlar idi.

Çeçen rəqsləri məni valeh etmişdi. Burada demək olar ki, hamı rəqs edirdi. Ovqatımızın xoş vaxtında keçmiş tələbələrimdən biri mənə müraciətlə:

– Xəlil Medjidoviç, bizdə bir növ adət halını

alıb restoranda dava salmaq. Odur ki, əgər dava başlasa, narahat olmayın, bir az vuruşub sakitləşəcəklər – məlumat verdi.

– Əziz qonağı öldürmək necə, sizdə adətdirmi? Bəzi dağlı millətlərində intiqam almaq üçün ən əziz qonağı öldürürlər – mən də fikrimi bildirdim.

– Yox, qonaq bizdə müqəddəsdir, toxunulmazdır – deyə məni sakitləşdirdilər. Elə bu vaxt restoranda aləm qarışdı, parta-part düşdü. Maraqlı burası idi ki, heç kim harayçılıq eləmirdi, heç milis də işə qarışmırdı.

Dava necə qəfildən başlamışdısa, qəfildən də dayandı. Hər kəs çəkilib öz yerində oturdu, yeyib-içməyinə davam elədi. Dava eləyənlərin bəzilərinin restorandan çıxarkən qol-qola getmələri gözümdən yayınmadı.

SƏYYAR KABABXANALAR

Mən dəmiryol stansiyalarında kimlərinsə həyətyanı sahələrində becərdiyi pomidor, xiyar, alma-armud, bişirdiyi soyutma kartof, toyuq satmasına qadağa qoyulmasını heç vaxt başa düşə bilməmişəm. Milis işçilərini görəndə pərən-pərən düşən, özünə yer tapa bilməyən bu zavallı insanlara adamın yazığı gəlirdi (düzdür, son illər bu məsələdə münasibət xeyli dəyişib, indi hər kəs öz məhsulunu sata bilir).

Milisin bu çörək pulu qazanan insanları gözümçıxdıya saldığı bir vaxtda Rusiya dəmiryol stansiyalarının birində dayanan qatardan düşəndə gözlərimə inanmadım. Demək olar ki, hər vaqonun yanında platformada böyük manqallar qoyulmuş, əsl səyyar kababxanalar açılmışdı. Bu işi təşkil edənlər həmyerlilərimiz idi. İş yüksək təşkilatçılıqla aparılırdı. Məlum oldu ki, gün ərzində onlarla qoyunun ətindən kabab bişirilir (stansiya çox işlək stansiya idi). Vaqon-restoranlar qabaqcadan sifarişlər də verirlər. Ətlə təminat üçün xüsusi qoyun fermaları yaradılıb. Bir sözlə, həmyerlilərimiz çox təmiz (stansiyanın adı "Qryazi" olsa da) bir işlə məşğul idilər. Mənə isə "afərin, soydaşlarımız!" – demək qalırdı.

QARAÇI QIZI

Kupemizin qapısı ağzında bir qaraçı qızı peyda oldu. Onun kupeyə daxil olmaması üçün mən onu qapıda qarşıladım. Təbii ki, qaraçı qızı falıma baxmağı təklif etdi. Ondan yaxa qurtarmaq üçün etirazlarıma baxmayaraq, onun əl çəkmək fikri yox idi.

– O, əl çəkən deyil, gör cibində xırda-xuruş nə var, ver getsin – həyat yoldaşım məsləhət bildi. Mən cibimdən bir ovuc metal pul çıxarıb ona verdim. O, etiraz edib pulları mənə qaytardı.

– Mən sənin falına pulsuz baxacam, sən yaxşı adamsan – dedi.

Metal pullar olan ovucumu əlləri arasında sıxdı və şirin dilini işə saldı. Nəhayət:

– Aç ovucunu – komandasını verdi. Mən pul olan ovucumu açdım. Qəribədir, pullar yox idi. O:

– Qadan-bəlan bu pullar kimi yox oldu – deyib, bizi tərk etdi.

Sözün düzü, nə və necə baş verdiyini hələ dərk edə bilmirdim. Həyat yoldaşım isə bir qaraçı qızının əlində aciz qalmağıma ürəkdən gülürdü...

Xəlil MƏCİDOĞLU
E-mail: khalil_majid@box.az

PROZA

Syuqoro Yamamoto
(Yaponiya)

QURUMUŞ AĞAC

Hekayə



Xey tikdiyi daxmasında tənha yaşayırdı. Torpağa dörd dirək basdırmışdı, kənarlarını köhnə taxtalarla bağlamışdı, damını, tullanmış köhnə paslı dəmir hissələri ilə örtmüşdü. Daxmanın qapısı o qədər alçaq idi ki, içəri, yalnız ikiqat əyilmiş vəziyyətlə keçmək mümkün idi. Cənub tərəfə açdığı dördkünc pəncərəyə isə, gün işığını güclə buraxan şüşələr salmışdı.

Küçə boyu yaşayanlar evlərini bəzəməyə çalışır, divarlardan ayıdöşəyi çələngləri asır, dibçəklərdə müxtəlif bitkilər əkir, evlərinin qarşısındakı torpaq sahəsində gül-çiçək yetişdirirdilər. Evlərinin dam-divarlarını, qapı-bacasını yorulmadan, parıldayana qədər silib təmizləyir və bununla özlərinə kiçicik sevinc və rahatlıq bəxş edirdilər.

Xey isə bunlar haqqında heç düşünmürdü. Onun daxması çölün ortasında bir qıraqda yerləşirdi. Belə ki, çölün alaq otları arasından daxma güclə seçilirdi. Xey daxmanın qapısından çölə nazik bir çığır açmışdı. Pəncərəsinin qarşısında, hündürlüyü bir metrdən çox olmayan qurumuş, tənha bir ağac nəzərə çarpırdı. Ola bilsin, bu ağac çox illər əvvəl quruduğundan, onun nə ağacı olduğunu təyin etmək mümkün deyildi.

Xey bir kəslə danışmaz, bir kəsə salam verməzdi. Onu salamlayanlara belə cavab verməzdi. Çox nadir hallarda kiminləsə kəlmə kəsərdi. Heç kəs onun əsl adını, yaşını bilmirdi. Görkəmindən ona əlli-altmış yaş vermək olardı. Bəzənsə yetmiş yaşlı qocalara oxşayırdı. Boyu hündür deyildi, bədəni arıq, amma əzələli idi. Gündən qaralmış dərisi öz parlaqlığını itirməmişdi. Ümumiyyətlə, o, sağlam insana bənzəyirdi. Düzgün sifət quruluşu, qalın qaşları üzünün nəcibliyini bir az da gözə çarpdırırdı.

- Olsun ki, cavanlığında yaxşı kişilərdən olub. Elə indi də pis deyil. Deyirlər, bu yaxınlarda yanına bir qadın da gəlibmiş...-quyu başında arvadlar danışırdılar.

- Kimdi onu bəyənən?

- Kim bəyənər, özü bilər. Başqasının işinə burnunuzu soxmayın.

Xeyin bu qeybətlərdən xəbəri olub-olmadığını demək çətin idi.

Hər halda, o, susurdu və elə bil öz tənha subaylıq vəziyyətini dəyişmək fikrində deyildi.

Xey kiçik xalçalar toxumaqla məşğul idi. O, köhnə paltar satanlardan cındır əskilər alır, çöldə kərpicdən düzəltdiyi sobada qazana töküb qaynadır, sonra gündə qurudurdu. Qurudulmuş əski

parçalarını iki santimetr enində kəsib möhkəm bururdu. Onun toxucu dəzgahı çox sadə idi. Görünür, onu da özü düzəltmişdi. Xeyin toxuduğu balaca xalçalar növbənöv çıxırdı – hamamda ayaq altına salmaq da olardı. Amma xalçalar gözəgəlimli və keyfiyyətli olurdu. Odu ki, Xeyin müştəriləri də həmişə çox olurdu.

Səhər tezdən Xey özü ilə dəsmal, köhnə vedrə və ləyən götürüb su quyusuna gedirdi. Yuyunduqdan sonra vedrəni doldurub geriyə qayıdırdı. Rəfdən bir naringi qutusu çıxarıb, ordan bir qədər düyü və arpa götürərək alüminium qazana tökür, yenidən su quyusuna gedib, düyünü və arpanı orda yuyur, daxmaya qayıdıb qazanı ocağın üstünə qoyurdu.

Camaatın əksəriyyəti gündəlik işlə məşğul olduqlarından, tezdənnən durur, Xey ilə bir vaxtda su quyusunun yanına gəlirdilər. Bəziləri onu sorğu-suala tuturdularsa da, ondan cavab ala bilmirdilər. O, adəti üzrə susurdu...

Günlərin bir günü, onun bu qaradinməzliyinə davam gətirməyən gənc bir oğlan özündən çıxıb:

- Karsan, nəsən?.. Sənlə salamlaşanda cavab ver! – deyə bağırdı və Xeyi yumruqlamaq istədisə də, Xeyin donuq, hərəkətsiz üzünə, soyuq baxışlarına baxıb əlini havada saxladı, bərkdən söyməklə kifayətlənib çıxıb getdi.

- Bu necə adamdı?.. Heç tükü də tərpənmir. Üzünə baxırsan, gözləri ölü gözləridir. Damarlarında elə bil qan yox, bomboz su axır... – sonradan həmin cavan deyirdi.

Xey hər gün eyni şey yeyirdi: düyü ilə arpanı yarıbayarı qaynadıb miso və şoraba ilə yeyirdi. Misonu dükandan alırdı, şorabanı isə özü hazırlayırdı.

O, həmişə hərəkətdə idi. Heç harada işləmirdisə də, adət etdiyi gündəlik hərəkətlərini "icra edirdi". Hər səhər cındır əskilərlə dolu böyük kisəni çəkib gətirər, içindəkiləri yerə boşaldar, çeşidləyərdi. Əldəqayırma sobasını qalayar, baka yuyucu toz töküb əskiləri qaynadar, aradabir taxta çubuqla qarışdırardı. Bütün bu işləri o, səssiz-səmirsiz, ətrafına belə baxmadan yerinə yetirərdi. Adama elə gəlirdi ki, onun heç bir hissi, ya düşüncəsi yoxdur.

Su quyusunun başında arvadlar tez-tez Xeyin qeybətini qırardılar.

- Müştərilər xalçanı, az qala, onun əlindən qapırdılar. Indi təsəvvür eləyin, nə qədər pul yığıb...

- Pul onun nəyinə lazımdı ki? Onsuz da tək yaşayır, doğma bir kəsi də yoxdu. Öləndə qəbrinə aparacaq?

- Özünə heç nə qıymır. Kinoya getmir, evinə bir radioqəbuledici də almayıb. Allah bilə, xəlvətcə qızlara xərcləyir.

- Eh, nə axmaqdır. Bizim küçədə kimə göz eləsə, havayı gələr.

Günlərin birində Xeyin daxmasının ağzında, əlində kiçik bağlama, əlli yaşlarında bir qadın göründü. Bu, ortaboylu, biçimli bədən quruluşlu, ağbəniz, qarasaç bir qadın idi, incə sifəti, qara, enli qaşları, dolu dodaqları vardı.

Xey evdə yox idi deyə, qadın onu gözləmək qərarına gəldi. O, evin ətrafında dolaşıb qurumuş ağacın qarşısında dayandı, onun budaqlarına toxundu, sonra evin divarına söykənib oturdu və gözlərini yumdu.

Daxma yol kənarında, kimsəsiz bir yerdə yerləşdiyindən, qonşuların gözündən uzaq idi. Odu ki, heç kəsin sorğu - sualına cavab verməli olmadı. Yaxınlıqda bir it veyillənirdi, başını qaldırıb qadına baxdı və maraqlı heç nə görmədiyindən uzaqlaşıb getdi.

Iki saatdan sonra Xey gəldi. Qadın fikirli olduğu üçün onun gəlişini hiss etmədi. Açılan qapının cırıltısını eşidib, tez ayağa qalxdı və həyəcandan yerindəcə dondu. Yaraşıqlı üzü qızarıb pörtdü, bağlamanı tutan əlləri əsməyə başladı.

Qadın qapını açıb daxmaya daxil olanda, Xey, arxası ona, köhnə gödəkçəsini çıxarırdı. Qadın qapını örtüb astaca:

- Bu mənəm. – dedi.

Xey çönüb, soyuq baxışlarla qadına baxdı. Qadın bağlamanı sinəsinə sıxıb, elə bil özünü müdafiə etmək istəyi ilə baş əydi və elə o dəqiqə də yaraşıqlı sifəti öz gözəlliyini itirdi.

Xey sakitcə-sakitcə papağını çıxartdı. Otağın boş tərəfindəki taxta döşəməyə qalxdı. Qadın yavaş-yavaş "otağa" göz gəzdirməyə başladı: döşəməsi torpaq kandar, stol, stolun altında yuyunmaq üçün ləyən, yuyucu tozla dolu dəmir qutu. Bir neçə şüşə qab, iki vedrə. Üzbəüz divarda alçaq şkaf, yuxarı tərəfdə səliqə ilə düzülmüş qab-qacaq, üzqırxan ülgüc, sabunqabı, aşağı tərəfdə üç naringi qutusu, alüminium qazan.

Qadın bağlamasını taxta döşəmənin kənarına qoydu, bağlamadan ip çıxarıb kimononun enli qollarını çəkib bağladı. Sonra boş vedrəni götürüb daxmadan çıxdı. Həmin gündən qadın Xeyin daxmasında yaşamağa başladı.

Xey onunla danışmırdı, onun tərəfə heç baxmırdı. Ona görə yox ki, onu qəbul eləmirdi, sadəcə, qadının gəlişini, onun bu evdə olmasını tamamilə ağlaşığmaz sayırdı.

Qadın su gətirir, nahar hazırlayır, evi yığışdırır, paltar yuyur, ərzaq almağa gedirdi. Xey onun bişirdiklərini yeyir, yuduğu təmiz paltarı geyir, gecələr qadının onun üçün hazırladığı yataqda yatırdı. Bütün bunları o, düşünmədən, başqa işləri yerinə yetirdiyi kimi edirdi. Hətta yediyi vaxt anlamırdı ki, yeyir. O, sadəcə, lazımi hərəkətləri icra edirdi: yeməyi qaşıqla götürür, ağzına tərəf aparır, çeynəyir və udurdu.

Qadının gəlişi ilə Xeyin həyatında heç bir dəyişiklik baş vermədi. O, əvvəlki kimi, köhnə paltar satanlardan əski-üskü alır, qaynadır, qurudur, nazik hissələrə bölür və xalçalar toxuyurdu. Qadın nədəsə ona kömək etmək istəyəndə, o etiraz etmirdi. Ona istədiyi işi görməyə sakitcə icazə verirdi. Camaatın danışıqlarının əksinə olaraq, Xey qadına dəzgahda işləməyə də icazə verirdi.

Bacarığına və qabiliyyətinə görə Xeyin xalçaları tez satılırdı, hətta tələbat da böyük idi. Odu ki, qadın xalça toxumaq istədikdə, o, sakitcə razılaşaraq, başqa bir işlə məşğul olurdu.

Bir neçə xalça toxuduqdan sonra Xey onları satmağa aparırdı. Qadın evdə tək qalanda, daxmanı səliqə-səhmana salır, çöl tərəfdən ətrafı süpürür, zir-zibili yığıb atırdı.

Axşam yeməyindən sonra Xey bir qədər dincəlir, saat ona qədər xalça toxuyurdu. O, bu işi yalnız ona görə etmirdi ki, ehtiyacı böyük idi: sadəcə, vaxt öldürməyə çalışırdı. Şamın zəif işığında gözləri yaşarmağa başlayanda, o, dəzgahını yığışdırıb yatırdı. Qadın da sakitcə onun yanında uzanıb, üstünə nazik ədyal örtərdi. Şamı söndürəndən sonra otaq zülmətə qərq olardı. Xey çox narahat yatırdı, amma heç vaxt xoruldamırdı.

...Qadın sakitcə ağlamağa başladı. Onun hıçqırtıları səhrada əsən küləyin xışıltısını xatırladırdı. Bir müddətdən sonra o, güclə eşidiləcək səslə pıçıldamağa başladı:

- Dükanda hər şey yaxşıdı. Kürəkən var qüvvəsilə işləyir – qızıl kimi adamdı. Mənə qarşı da yaxşıdı. Səndən söhbət düşəndə, o həmişə səni qonaq dəvət etməyi xahiş edir. – o, hıçqıraraq sözünə davam etdi:

- Mən neyləyim, söylə... Mən ata-anamın yeganə övladı idim, mənə hər şey icazə verilirdi. Bəzən pis hərəkətlər də edirdim, amma başa düşmürdüm ki, belə eləmək olmaz. O adamla o hadisə ona görə baş vermədi ki, o mənim çox xoşuma gəlirdi. Mən uşağı da, başa düşmədən, ondan doğmuşam. Heç olmasa, buna inan.

Xey tərpənmədi.

- Indi mən neyləyim? Bax, artıq iyirmi beş ildi ki, getmisən. Başa düşürəm, sənin üçün ağır olub, amma mənim üçün də dözülməz keçib. Rəhmətlik anam da həmişə deyirdi ki, "səni bağışlamaq olmaz". O, rəhmətə gedəndə, mən özümü lənətlədim, özümə nifrət eləməyə başladım.

"Ağırdır, dözülməzdir, özümə nifrət edirəm..." ifadələri on dəfələrlə səslənirdi, elə bil, əzbərlənmiş monoloq təkrar olunurdu.

- Qatillərin belə, katorqada cəzasını çəkəndən sonra günahından keçirlər. Niyə bağışlamaq istəmirsən? Sən de, sənə görə, nə istəsən, edərəm.

Xey isə susurdu... Qadın nə söyləsə də, nə qədər yalvarsa da, onu eşitmirdi. Elə bil, yol kənarına düşüb qalmış daş idi. Külək əsir, daş isə tərpənmirdi.

Qadın daxmada on iki gün qaldı. On üçüncü gün getməyə hazırlaşdı.

Xey növbəti xalçaları satıb evə qayıdanda, o, taxta döşəmənin kənarında dizinin üstündə bağlama oturmuşdu.

Hava qaralmağa başlayırdı. Xey adəti üzrə, gödəkcəsini və papağını soyunub, qadının yanından ötdü, taxta döşəmənin üstünə qalxdı.

Qadın başını aşağı dikib yerə baxırdı. Bənizi ağarmış, dizlərinin üstündə saxladığı əlləri qırış bağlamışdı. Çox keçmədi ki, arxadan, Xeyin addım səsləri eşidilməyə başladı. Qadın hələ də Xeyin nə isə deyəcəyinə ümid edirdi. Nəhayət, ayağa qalxıb saçlarına tumar verdi, sakitcə ah çəkib:

- Deməli, heç nə düzəlməyəcək?.. Bağışlamaq istəmirsən?Xey torpaq döşəməyə enib, rəfdəki alüminium qazanın qapağını açdı: qazan boş idi. Qadın heç nə bişirməmişdi.

Qazanı boş görüb, düyü və arpa olan qutunu çəkdi. Qadının bu gün yemək hazırlamadığı onu qətiyyən təəccübləndirmədi. Adəti üzrə qazana düyü və arpa töküb daxmadan çıxdı.

Qadın bağlamasını əlinə götürüb, yorğun halda ayağa qalxdı, inamsız baxışlarla daxmanı süzdü. Sonra qətiyyətsiz halda komadan çıxdı və qapını örtdü. Batmaqda olan günəş, səmadakı buludları azacıq işıqlandırırdı... Qadın daxmanı ötüb, qurumuş ağacın yanında – pəncərə qarşısında dayandı, əlini ağaca toxunduraraq:

- Hə... bu yəqin ki, yabanı zeytundu... – pıçıldadı.

Səsi elə ümidsiz idi, elə bil o ağac, ağac olmaqdan imtina eləmişdi. Belini bir az da büküb uzaqlaşdı.

Xey qazanı sobanın üstünə qoyaraq ocaq qalamağa başladı. Ocaqdan ağ tüstü qalxdı, alovun qırmızı dili qazanın altını yalamağa başladı. Alovun işığı Xeyin üzünü işıqlandırdı. Onun üzü hərəkətsiz idi, gözlərini heç nəyə baxmadan bərəldib, qaranlığa dikmişdi.


Külək bərkimişdi... soba yavaş-yavaş tüstülənirdi. Xey tüstüdən öskürüb ocağa təzədən bir neçə odun parçası atdı...

Tərcümə edən:
Leyla Abbasova

İDMAN

OLİMPİYA ÇEMPİONU DAHA SƏKKİZ AY GÜLƏŞMƏYƏCƏK

Cüdo üzrə Azərbaycan milli komandasının üzvü, Pekin Yay Olimpiya Oyunlarının qalibi Elnur Məmmədlinin apasport.az saytına müsahibəsi



- Olimpiadadan bəri heç bir yarışda iştirak etməmisiniz. Bu baxımdan güləşəcəyiniz ilk beynəlxalq turnir hansı olacaq?

- Birinci yarışım bu ilin sentyabrında keçiriləcək dünya çempionatı olacaq.

- Amma gələn ay Fransada təşkil olunacaq "Qrand Şlem"də tatami üzərinə çıxacağınız bildirilirdi.

- Düzdür, Fransaya yollanacağam. Orada "Qrand Şlem"də deyil, təlim-məşq toplanışlarında iştirak edəcəyəm. Qarşıdakı aylarda yalnız toplanışlara qatılaraq, dünya çempionatına hazırlaşacağam.

- Daha bir neçə ay güləşməyəcəyinizə səbəb nədir?

- Bir az zədələrim var. Bildiyiniz kimi, sağ ayağımdan iki dəfə – 2006-cı ildə Rusiyada, 2007-ci ildə isə Almaniyada əməliyyat olunmuşam. İndi ayağımda bir qədər ağrılar hiss edirəm.

- Bəs Avropa çempionatında da iştirak etməyəcəksiniz?

- Yəqin ki, yox. Məncə, qitə birinciliyində Azərbaycanın şərəfini son ölkə çempionu titulunu qazanmış Elçin Qasımov qoruyacaq.

- Yeri gəlmişkən, Azərbaycan çempionatında iştirak etməməyiniz birmənalı qarşılanmadı. Xüsusilə, olimpiya çempionunun özü idmançı olduğu halda, digər cüdoçuya medal verməsi tənqid edildi. Sizcə, bu nə dərəcədə doğrudur?

- Çempionatdan kənarda qalmağım zədə amili ilə əlaqədardır. Mükafatlandırma mərasiminə gəlincə, Azərbaycanın müstəqil idman tarixində cüdo üzrə olimpiya çempionu yox idi. Olimpiadanın qalibinin medal verməsi Azərbaycan çempionu üçün fəxrdir. Həmin idmançı da qarşısına məqsəd qoyur ki, mən də olimpiya çempionu olmalıyam.

- Ümumiyyətlə, bəzi idmançıların milli çempionata qatılmamasına münasibətiniz necədir?

- Mən özümə cavabdehəm. Digər idmançılar özləri bilərlər, onların şəxsi məşqçiləri var. Yenə deyirəm, zədəmə görə güləşə bilmədim. 2008-ci ilin əvvəlində, Pekin Yay Olimpiya Oyunları öncəsi ölkə çempionatına qatılmışdım və 81 kq çəki dərəcəsində ikinci yeri tutmuşdum. Həmçinin, ondan əvvəlki birincilikdə də çıxış etmişəm.

- Son vaxtlar siyasi tədbirlərə daha çox vaxt ayırırsınız. Tezliklə idmanı atıb, sırf siyasətlə məşğul olmağı nəzərdə tutmamısınız?

- Xeyr. İdman üçün də vaxt ayırmaq olar, siyasət üçün də. Yəni, hər iki işi paralel aparmaqdan ötrü plan tərtib olunub.

- Olimpiya çempionu olduqdan sonra reklam çarxlarına və ya kinolara çəkilməyə dəvət almısınız?

- Təkliflər çox olub. Lakin bunlardan imtina etmişəm. Çünki marağım olmayıb.

- Ancaq bu yaxınlarda şoubiznes jurnallarının birində model kimi təqdim olunmuşdunuz...

- Jurnalın əməkdaşlarından biri dostum idi. Buna görə jurnala şəkil çəkdirməyə razılıq verdim.

- 2009-cu illə bağlı hədəfləriniz nədir? Bu il qarşınıza hansı məqsədi qoymusunuz?

- Bu il əsas məqsədim dünya çempionu olmaqdır. Bunun üçün ciddi hazırlaşıb, hədəfimə çatmaq istəyirəm. İnşallah, sentyabrda dünya çempionatının qızıl medalını əldə edəcəyimə inanıram.

TƏBABƏT

LEYKEMİYANI ÜZÜM TUMU MÜALİCƏ EDƏCƏK

Kentukki Universitetində (ABŞ) aparılan eksperimentlər göstərmişdir ki, üzüm tumlarından hazırlanan cövhər leykemiyaya səbəb olan xərçəng hüceyrələrinin kütləvi şəkildə "intiharı"na səbəb olur. Cövhəri qəbul etdikdən sonra 24 saat ərzində həmin hüceyrələrin 76 faizi məhv olmuşdur. Üzüm tumundan cövhər dəri, döş, bağırsaq, ağ ciyər, mədə və prostat xərçəngi ilə mübarizədə də səmərəlidir.

Hələlik məlum olmayan səbəbdən cövhər proteini fəallaşdırır və nəticədə xərçəng hüceyrələri özləri özlərini dağıdırlar. Eyni zamanda, o, sağlam hüceyrələrə ziyan yetirmir.

QULAĞINIZ ZƏİF EŞİDİR? BEYİN TƏQSİRKARDIR!

Roçester Universitetinin (ABŞ) tibb mərkəzinin alimləri hesab edirlər ki, beyin bir növ dəyişdirici açar rolunu oynaya bilir. Lazım olanda insan ətrafdakı səslərə məhəl qoymadan yalnız həmsöhbətinin dediklərini eşidir. Yaş ötdükcə bu vərdiş zəifləyir.

Alimlərin fikrincə, buna səbəb eşitmə qabiliyyətinin zəifləməsi deyildir. Beyin nəinki səsləri qəbul edir, həm də onları idarə edir. İnsan həmsöhbətinin sifətinə təkcə ehtiram əlaməti olaraq baxmır. O, həm də başqa səslərdən təcrid olmağa çalışır.

Dinləyici özündən asılı olmayaraq elə nöqtə tapmağa çalışır ki, hər iki qulağı eyni dərəcədə eşitsin.

ALİMLƏR PASSİV SİQARETÇƏKMƏNİN ÜÇÜNCÜ DƏRƏCƏSİNİ MÜƏYYƏN ETMİŞLƏR

Passiv siqaretçəkmənin ziyanından xəbərdar olanlar yaxınlarının yanında siqaret çəkməməyə çalışırlar. Lakin bu da kifayət deyildir.

Tədqiqatçılar əmindirlər ki, zərərli vərdişin ətrafdakılara təsirinin üçüncü dərəcəsi də mövcuddur. Zəhərli maddələr siqaret çəkənin paltarına və saçlarına hopur.

Körpə uşaqlar siqaret çəkənin qucağında nəinki zərərli maddələri udur, həm də onları yalamaqla ağ ciyərləri üçün təhlükə törədirlər. Bu, uşaqların zehni inkişafına da mənfi təsir göstərə bilər.

XƏRÇƏNGƏ QARŞI FİLTR-İMPLANTANT YARADILMIŞDIR

Qan damarına qoşulan kiçik boru qandan xərçəng hüceyrələrini götürüb onları zərərsizləşdirir və yenidən qana buraxır. Borunun daxili səthi xüsusi zülallarla örtülmüşdür. Laboratoriya sınaqları göstərmişdir ki, boru sağlam hüceyrələrə toxunmadan, xərçəng hüceyrələrinin 30 faizini məhv edir. Xərçəngin müalicəsinə bu cür yardım təbabətdə yenilikdir. Ehtimal ki, qanın xərçəng hüceyrələrindən müəyyən qədər təmizlənməsi orqanizmə qalanları ilə mübarizə aparmaqda kömək edəcək.

QADINLAR VƏ KİŞİLƏR SİQARET ÇƏKMƏYİ MÜXTƏLİF CÜR ATMALIDIRLAR

Amerika həkimləri müəyyən etmişlər ki, siqaret çəkməyi atmaq istəyən qadınlar kişilərdən fərqli çətinliklərlə üzləşirlər.

Həkimlər bu zərərli vərdişdən əl çəkməkdə kömək göstərərkən, pasiyentin cinsini nəzərə almalıdırlar. Onların fikrincə, adətən qadınlar əksər hallarda terapiyadan sonra yenidən siqaret çəkirlər, çünki qadınlar depressiya, həyəcan, əsəbilik və ətalətin öhdəsindən çətinliklə gəlirlər.

Uşaq dünyası


"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

Şəhidlərin xatirəsi yad edildi

Yanvarın 19-da "Dünya" məktəbində qanlı 20 yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbir keçirildi. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Məktəbin tarix müəlliməsi Ülviyyə Ağayeva o günlər haqqında məlumat verdi və həmin günün Azərbaycan tarixinə qəhrəmanlıq tarixi kimi yazıldığını qeyd etdi. VI b sinif şagirdləri Şirinova Esmiralda və Rzayev Seymurun ifasında vətənpərvər ruhlu şeirlər dinlənildi.

Bundan əlavə, məktəbdə 20 yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş fotostend hazırlandı. Yanvarın 16-19-da şagirdlərin Şəhidlər xiyabanına ziyarətləri təşkil edildi.







TEZLİKLƏ BÖYÜ, MURAD!

Bu dəfəki ünvanım I b sinfi oldu. Balacalarla müsahibə məndə həmişə maraq doğurur. Yanılmadığımı bir daha anladım. "Murad Şahmarovla söhbətimiz yaxşı alındı" desəm, səhv etmərəm.

-Murad, özün haqqında nə danışardın?

- Nə soruşsalar, ona cavab verərdim...

-Onda mənim soruşduğum bütün suallara cavab verərsən?

-Bəli.

-Oxumaq, dərs öyrənməklə aran necədir?

-Yaxşı.

-Əlifbanı öyrənib qurtardın? Ən çox sevdiyin hərf hansıdır?

-Demək olar ki, qurtarmışıq. Ən çox sevdiyim hərf isə "J" hərfidir.

-Niyə bu hərf?

-Çünki "Jalə" adını sevirəm. Həm də bu hərfi yazmaq asandır (gülür).

-Ay Murad, sənca insanlar nəyə görə yazıb-oxumağı öyrənirlər?

-Yazıb-oxumağı bacarmasalar, böyüyəndə yaxşı yerlərdə işləyə bilməzlər axı...

-Bəs sən böyüyəndə nəçi olmaq istərdin?

-Futbolçu! Mən bu oyunu çox yaxşı oynayıram. Məhləmizdə futbol oyunu keçiriləndə hamı məni çağırır. Yaxşı top ötürə, qol vura bilirəm...

-Böyüyüb məşhur futbolçu olanda, hansı rəqəmli maykanı geymək istərdin?

-99. Çünki 99 ən böyük rəqəmdir.



-"Dəcəlsənmi" sualını versələr, hansı cavabı verərdin?

-"Mən dəcəl deyiləm" deyərdim (gülür).

-Murad, bayraq görəndə ilk ağlına gələn fikir hansı olur?

-Hər şey yadıma düşür. Ay-ulduz...atam, Vətən.

-Sənca, oğlanlar niyə əsgər getməlidirlər?

-Çünki Vətəni oğlanlar qorumalıdırlar.

-Sənca uşaq olmaq yaxşıdı, yoxsa böyük?

-Böyük! Çünki böyüklərə hər şey olar, balacalara isə yox...

Murada tezliklə böyüməyi diləyərək ayrıldım.

Muradla danışdı: **Mədinə RZAYEVA**

NEWS FROM THE IBO

The exciting news came from the IB Organization last Friday. The challenging but rewarding process which took two years ended successfully. Dunya School has been authorized to teach international Baccalaureate Diploma Programme starting in September 2009 and got the status of international school which is very important for our country today. The world is changing so rapidly and we need a lot of professionals who can deal with these changes and fully contribute the development in the society. And IB is a great help in educating open-minded and well-rounded world citizens.

What is IBO? What is the importance of this programme? It is a new programme in Azerbaijan and probably many people do not have enough information about it. International Baccalaureate (IB) is a recognized leader in the field of international education, encouraging students to be active learners, well-rounded individuals and engaged world citizens .The International Baccalaureate Organization aims to develop inquiring, knowledgeable and caring young people who help to create a better and more peaceful world through intercultural understanding and respect.

The IB Organization has developed the Diploma Programme as a pre-college/university programme aimed at students in the 16–19 age group. Students who will study the Diploma Programme successfully get the chance to start their international education right after they graduate from IB School.

Most of the universities recognize this Diploma and give even more points to those who graduated from IB School.

Rena MUSAYEVA
IB Coordinator

XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASINA DAİR FİKİRLƏR

Cəmiyyət dəyişib inkişaf etdikcə ünsiyyət vasitəsi olan dil də inkişaf edir və zaman ərzində müəyyən dəyişikliklərə uğrayır. Və bu dəyişikliklər tədris etdiyimiz dillərin metodlarının yeniləşdirilməsini və ona uyğun müasir və yaradıcı tədris üsullarının tətbiqini zəruriləşdirir. 10-15 il bundan əvvəlki metodlarla xarici dillərin tədrisinin elə də ürəkaçan bir nəticə vermədiyi heç kəsə sirr deyil. Bu onu göstərir ki, biz bu gün tədris metodlarını müasir tələblərə uyğun qurmalıyıq ki, müəyyən nəticələr əldə edə bilək. Qloballaşan dünyamızda insanların yalnız öz dillərini mükəmməl bilmələri ilə kifayətlənmədikləri, başqa xarici dil və mədəniyyətləri öyrənməyə maraq göstərdikləri bir şəraitdə xarici dillərin öyrədilməsində yeni metodlardan istifadə etmək zərurəti ortaya çıxır.

Etiraf edək ki, bu gün Azərbaycanda xarici dillərin tədrisində xeyli irəliləyiş olmasına baxmayaraq, hələ də keçmiş tədris metodlarından istifadə olunur ki, bu da xarici dillərin tədrisində kifayət qədər müvəffəqiyyət qazanılmasına imkan vermir. Ingilis dilini tədris etdiyim uzun illər ərzində məni hər zaman bir sual narahat edir: bizim tələbələr nədən bu qədər çalışmalarına rəgmən ingilis dilində ən sadə şəkildə öz fikirlərini ifadə etməyi bacarmır və ya qorxa-qorxa danışırlar ki, bu da onların öz biliklərinə əmin olmadığını göstərir.

Tələbələr dilin qrammatikasına kifayət qədər bələd olsalar da, bunu tətbiq etməkdə çox çətinlik çəkirlər. Bütün bunların ən böyük səbəblərindən biri dilin tədrisində qrammatik qaydalarla bərabər oxu və yazıya kifayət qədər fikir verilməməsidir. Ingilis dili üzrə dövlət qəbul imtahanlarının da əsasən qrammatika yönlü olduğu üçün tələbələr də danışmağı, öyrəndiklərini tətbiq etməyi bir tərəfə buraxıb, yalnız qrammatik qaydaların cümlələrdə tətbiqi ilə məşğuldurlar. Halbuki, əgər tələbə həmin dildə (bu hər hansı bir xarici dil ola bilər) öz fikirlərini sadə şəkildə ifadə etməyi bacarmırsa, o dilin qrammatikası heç bir işə yaramır. Bəzən mən belə fikirləri söylərkən, ətrafımda məni səhv anlayaraq, sanki dilin qrammatikasının əleyhinə oldugumu düşünüb etiraz edirlər. Xeyr, mən qətiyyən dilin qrammatikasının öyrənilməsinin əleyhinə deyiləm. Qrammatik qaydalar dilin öyrədilməsi fonunda tədris edilməlidir və çalışılmalıdır ki, tələbə birinci növbədə danışsın və lazım gəldikcə ona uyğun olaraq qrammatik qaydalar tədris edilsin. Tələbələr öyrəndikləri qrammatik qaydaları tətbiq etməyi bacardıqdan sonra o biri qaydaların öyrənilməsinə keçilməlidir. Əsasən yalnız qrammatik qaydaların, o cümlədən zaman formalarının dəqiq harada nə zaman işlədilməsinin öyrədilməsi nəticəsində tələbə dilə marağını itirir.

Biz tədris müddətində müxtəlif maraqlı hekayələrdən istifadə etsək və tələbə vaxtının çox hissəsini qrammatik qayda əzbərləmək əvəzinə həmin dildə müxtəlif materiallar oxusa, bu onun həm dünyagörüşünün artmasına, həm də məntiqi təfəkkürünün formalaşmasına səbəb olar. Bu gün bizim bu qədər təhsil ocaqlarımızın olmasına rəğmən kifayət qədər mütəxəssisimizin olmamasının kökündə tədrisimizdə hələ neçə illər bundan əvvəlki metodlardan ayrıla bilməməiyimiz durur. Məsələ orasındadır ki, yeni metodları tətbiq edərkən əksər hallarda valideynlərin də etirazı ilə qarşılaşırsan. Əgər tələbə hər gün qrammatik çalışma etmirsə, valideyn o dərsin keyfiyyətinin aşağı olması qərarına gəlir və etiraz edərkən də, əlbəttə, əsaslı olaraq övladının qəbul imtahanları yönündə hazırlaşdırılmasını tələb edir ki, nəticə də göz qabağındadır.

Məncə, bütün bunların qarşısını almaq üçün birinci növbədə dövlət qəbul imtahanlarının keçirilməsi sistemini dəyişdirmək lazımdır və buna uyğun olaraq da tədris metodları dəyişdirilməlidir. Nə qədər ki, xarici dil üzrə qəbul imtahanları bu qayda ilə keçiriləcək, mən dillərin öyrədilməsində istədiyimiz nəticəyə nail ola bilməyəcəyimiz qənaətindəyəm.

Rəna MUSAYEVA,
ingilis dili müəllimi

MARAQ DÜNYASI

BİLİRSİNİZMİ?

- *Ən uzun avtomobilin 26 təkəri, içində isə kiçik üzgüçülük hovuzu var.*
- *Alyaskanın bayrağını 13 yaşlı oğlan yaradıb.*
- *Ağ evin telefon nömrəsi: (202 456 1414).*
- *Əgər bir stəkan suyun içinə 80 dəqiqə qışqırsaq, su qaynayar.*
- *Yazıçı Hans Xristian Andersen sözləri düzgün yazmırdı.*
- *Dünyada "Coca-Cola"-nı ən çox İslandiya əhalisi içir.*
- *Qadınlar kişilərə nisbətən 2 dəfə çox göz qırpırlar.*
- *Çinlilər "R" hərfini tələffüz edə bilmirlər.*
- *Çəyirtkənin eşitmə orqanı onun dizindədir.*
- *Fillər gündə orta hesabla 2 saat yatırlar.*
- *Əgər Çin əhalisi 2 metr hündürlükdən yerə tullansaydı, yer üzündə 4 bal gücündə zəlzələ baş verərdi.*
- *Dünyada ən balaca çay Miçiqan ştatında yerləşən Saqinay çayıdır.*
- *Canlılar içərisində bədəninə nisbətən ən böyük beynə qarışqa malikdir.*
- *Inəyi pilləkənlə qaldırmaq olar, lakin düşürtmək yox.*
- *Surami Maujgiri adlı hindli 1955-ci ildən 1973-cü ilin oktyabrına qədər ayaq üstə durub. Bu vaxt ərzində yuxusu gəldikdə, divara söykənməsi kifayət edib.*
- *Məşhur alim Demokrit gün işığını güzgü ilə gözünə salması nəticəsində özünü kor edib.*



Hazırlayanı:
7 "b" sinif şagirdi
Nərmin MƏMMƏDOVA

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

NADİRƏ - kiçik həcmli yumoristik əsər. Nəsrlə yaradılıb, lətifələrə yaxın məzmun və üslub xüsusiyyətli olur.

NAMƏ - Geniş mənada yazı deməkdir. Konkret olaraq isə mənzum məktub mənasındadır. Orta yüzilliklərdə "namə" "kitab" mənasında işlənmişdir. "Namə"-nin "məktub" mənası da var. Ş.İ.Xətainin "Dəhnamə" (on məktub) əsərində olduğu kimi.

NATURAL MƏKTƏB - 19-cu yüzilliyin 30-40-cı illərində ədəbiyyatda qabaqcıl, realist cərəyana verilmiş ad. Natural məktəb nümayəndələri həyatı dərindən öyrənir, varlığı, təbiəti (naturanı) realist əks etdirən əsərlər yaradırdılar. Natural məktəb nümayəndələri həyatı süni surətdə təsvir etməyin əleyhinə çıxırdılar.

NATURALİZM - ədəbiyyat və incəsənətdə həyatı ikinci dərəcəli hadisələrin zahiri təsviri yolu ilə əks etdirmək. 19-cu yüzillikdə Fransada meydana çıxmışdır.

NAZİM - bacarıqla, asanlıqla şeir qoşan, amma həqiqi şairlik istedadı, sənətkarlıq qabiliyyəti yüksək olmayan şəxs.

NEOLOGİZM - cəmiyyətin həyatındakı yeni hadisələri, anlayışları, nailiyyətləri göstərmək üçün xalq dilində yaranan, bədii əsərdə işlədilən yeni söz, yeni ifadə.

NƏFƏS - dərviş təriqəti təkyələrində oxunan mənzum əsər. Heca vəznində olan nəfəslər ayin zamanı, adətən, sazın müşayiəti ilə oxunur. Əruz vəznində də yazılır. Nəfəslərin yaranması Hacı Vəli Bəktaşinin adı ilə bağlıdır.

NƏQARƏT - şeirdə, xüsusən mahnıda hər bəndin sonunda təkrar olunan bir və ya bir neçə misralıq parça. Şeirdə, mahnıda nəqarətdən fikri, duyğunu daha qabarıq nəzərə çatdırmaq üçün istifadə olunur.

NƏSİHƏTNAMƏ - Şərq, həmçinin Azərbaycan ədəbiyyatında bədii - tərbiyəvi səciyyə daşıyan, həm şeir, həm də nəsr şəklində yazılan əsər.

NƏSR - ədəbi yaradıcılığın iki əsas tipindən (poeziya (nəzm) və nəsr) biri. Nəsr ərəbcə "nisar" sözündən olub, mənası "səpələmək", "dağılmaq" deməkdir.

NƏT - dini məzmunlu şeir. Qəsidə formasında olub, əsasən, Məhəmməd peyğəmbərin tərənnümünə həsr edilir.

NİSBƏ - yazıçının adı, təxəllüsü,ləqəbi ilə yanaşı işlənərək onun haralı olduğunu, harada doğulub boya-başa çatdığı yeri bildirir. Misal üçün, "Şirvani" Xaqaninin, "Gəncəvi" Nizaminin nisbəsidir.

NOVATORLUQ - bədii ədəbiyyatın forma və məzmununda xalq üçün əhəmiyyətli, dəyərli olan tamamilə yeni cəhətlər.

NOVELLA - epik növün kiçik formalarından (janrlarından) biri. Hekayənin xüsusi bir növü. Bəzən mənzum (şeirlə) da olur. Novellada təsvir olunan hadisə gözlənilməz sonluqla qurtarır. Ə.Haqverdiyevin "Bomba" hekayəsində olduğu kimi.

NOVRUZİYYƏ - Yaxın və Orta Şərq xalqlarından bəzilərinin ədəbiyyatında baharın başlanmasını bildirən Novruz bayramı münasibətilə yazılmış şeir.

NÖVHƏ - Şərq şeirində mərsiyəyə oxşar matəm nəğməsi.

Hazırlayanı:
Bəhlul ABDULLA

LƏTİFƏLƏR

Artistin cavabı

Film çəkilərkən rejissor artisti tovlayırdı ki, pələng saxlanılan qəfəsə girsin:

- Bu pələng körpə olanda süd içib, qorxub eləməyin.

- Mən də körpə olanda süd içmişəm, amma indi ət yeyirəm...

Həssaslıq

- Kiçik oğlum başıma müsibət açıb. Təzə əsərimin əlyazmasını atıb sobaya. Bir səhifəsi də ələ gəlməyib. Hamısı yanıb kül olub.

- Uşağın neçə yaşı var?

- Dörd.


- Bəyəm indidən oxumaq bilir?

Sövdələşmə

- Oğlum, əllərini yusan, sənə beş manat verəcəyəm, üzünü yusan 10 manat manat.

- Ana, bəlkə elə çimim?!

KİTABXANAMIZIN YENİ KİTABLARI





Allahverdiyev S. Azərbaycan Respublikasının mülki hüquq kursu: ümumi hissə. – 2-ci nəşr. –Bakı: Digesta, 2008. – 944 s.

Polad Ə. Həzrəti Əli. – Bakı: Oskar, 2008. – 372 s.




Gözler K. Judicial review of constitutional amendments: a comparative study. – Bursa: Ekin Press, 2008. – 126 p.
– ISBN 978-9944-141-73-4






The Complete World Development Report, 1978-2008 - Single User DVD: 30th Anniversary Edition



Xəlil Rza Ulutürk. Lefortovo zindanında. – Bakı: Çinar-Çap, 2006. – 482 s.


Hill Ch. International business: competing in the global marketplace. – 7th ed. – Boston: McGraw-Hill/Irwin, 2009. –
ISBN 978-0-07-338134-3



Polad Ə. Əzab yüklü eşşək. – Bakı: Nurlan, 2004. – 256 s.



Yusif S. Development economics through the decades: a critical look at thirty years of the world development report. – Washington: World Bank, 2009. – 188 p.
– ISBN 978-0-8213-7255-5



Hazırlayanı: Lyudmila SOTOVA

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org